# Kəmaləddin Heydərov İordaniya heyətini qəbul edib

**Azərbaycanın fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov ölkəmizdə səfərdə olan İordaniya Haşimilər Krallığı İctimai Təhlükəsizlik Baş İdarəsinin Əməliyyatlar və Təlim üzrə Baş direktor müavini briqada generalı Məhəmməd Mahmud Əl-Ömərinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Qonaqları səmimiyyətlə salamlayan nazir K.Heydərov ölkələrimiz arasında qarşılıqlı hörmətə əsaslanan əməkdaşlıq münasibətləri çərçivəsində fövqəladə halların idarə edilməsi və mülki müdafiə sahəsində əlaqələrin genişləndirilməsinin hər iki tərəf üçün faydalı olduğunu vurğulayıb. Nazir ölkəmizdə fövqəladə hallarla mübarizə və mülki müdafiə sahəsində görülən işlərdən danışıb, qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyətinə toxunub. Əminlik ifadə edilib ki, hazırki səfər zamanı keçirilən görüşlər və aparılan müzakirələr qurumlar arasında müxtəlif istiqamətlər üzrə əlaqələrin inkişafına əlavə təkan verəcək.

Səmimi görüşə və qonaqpərvərliyə görə təşəkkürünü bildirən Məhəmməd Mahmud Əl-Öməri iki ölkənin fövqəladə hallarla mübarizə və mülki müdafə sahəsində cavabdeh qurumları arasında münasibətlərin genişləndirilməsindən məmnunluq ifadə edib, müxtəlif istiqamətlər üzrə əməkdaşlığın dərinləşməsinin qarşılıqlı faydasını vurğulayıb.

Xalq qəzeti.- 2025.- 26 sentyabr (№206).- S.3.